**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

"Təsdiq edirəm"
Tədris məsələləri üzrə prorektor v.i.e:
__________dos. Zaur Məmmədov
"___"____________2026-cı il

## Fənn sillabusu

**İxtisasın şifri və adı:** 7001001 - Təsviri sənətin tədrisi
**Fakültə**: Tarix-coğrafiya və incəsənət
**Kafedra:** Pedaqogika, psixologiya və incəsənət

**I. Fənn haqqında məlumat**:

**Fənnin adı:** Şərqdə rəsm sənətinin tarixi
**Kodu:** MMF-B03
**Tədris ili:** I (2025/2026) Semestr: II (yaz)
**Tədris yükü:** Cəmi: 180 saat , Auditoriya saatı- 45 (30 saat mühazirə, seminar 15 saat)
**Təhsilalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 6 kredit

**II. Müəllim haqqında məlumat:**

**Soyadı, adı, ata adı, dərəcəsi və elmi adı:** b/m Dadaşova Aytən Natiq qızı
**Kafedranın ünvanı:** Lənkəran ş., Ə.Məmmədov küçəsi 19, 2- ci korpus
**Məsləhət günləri və saatı:** 2 ci gün 09.00-10.00
**E-mail ünvanı:** *dadashzade.a.n@gmail.com*

**III. Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**

1. Məmmədova Maral. Mədəniyyət nəzəriyyəsi. B., 2003
2. Azərbaycan sovet ensiklopediyası I-X cildlər. Bakı, 1976-1987
3. Bəhmən Əliyev – Ayvazlı. Hindistan Etnoqrafiyası. Bakı - 2017
4. Həsənzadə C., Hacınski. E. İncəsənət. Bəşəriyyətin misilsiz sərvəti. Bakı, 1999
5. Mədəniyyət tarixi və nəzəriyyəsi. Ali məktəblər üçün dərslik. Bakı, 2010
6. Mir-Bağırzadə S. İncəsənət tarixi (dərslik). Bakı, 2012
7. Н. В. Липатова ИСТОРИЯ ВОСТОЧНОГО ИСКУССТВА. Ульяновск 2019
8. Эрнст Гомбрих "История искусства "
9. Современное искусство Востока. сборник материалов I международной научной конференции. Москва 2017
10. https://gallerix.ru/pedia/east-asian-art--classical-painting-india/
11. https://moluch.ru/archive/59/7976

Əlavə ədəbiyyat:

12. Sims E. Peerless Images: Persian Painting and Its Sources.
13. Goodwin G. A History of Ottoman Architecture.
14. Necipoğlu G. The Age of Sinan.
15. Bloom J. Arts of the City Victorious: Islamic Art and Architecture in Fatimid North Africa and Egypt.
16. Portal J. Korean Art and Archaeology.
17. Sullivan M. The Arts of China.
18. Hauser A. The Social History of Art.

**IV. Prerekvizit fənlər:** Fənnin tədrisi üçün öncədən başqa bir fənnin tədrisinə zərurət yoxdur.

**V. Korekvizit fənlər:** Fənnin tədrisi ilə eyni zamanda başqa fənnin tədrisinə ehtiyac yoxdur.

**VI. Fənnin təsviri və məqsədi:**

Şərqdə rəsm sənətinin tarixi" fənni Şərq ölkələrində təsviri sənətin yaranma mərhələlərini, inkişaf istiqamətlərini və bədii-estetik xüsusiyyətlərini öyrənən nəzəri kursdur. Fənn çərçivəsində Qədim Şərq (Mesopotamiya, Misir, İran), Orta əsr İslam dünyası, Orta Asiya, Azərbaycan, Osmanlı və Hindistan miniatür məktəbləri, Çin və Yapon rəssamlıq ənənələri, eləcə də Şərq rəsm sənətinin kompozisiya, rəng, xətt və simvolika prinsipləri araşdırılır.

Kurs Şərq rəssamlığının fəlsəfi dünyagörüşü, dini-mənəvi təsəvvürlər, ornamentika, miniatür sənəti, kalliqrafiya və dekorativlik prinsipləri ilə sıx bağlı şəkildə təhlilini əhatə edir. Eyni zamanda, Şərq və Qərb rəssamlıq ənənələrinin qarşılıqlı təsiri və müasir dövrdə Şərq təsviri sənətinin inkişaf istiqamətləri də öyrənilir.

Tələbələrə Şərq rəsm sənətinin tarixi inkişaf mərhələləri haqqında sistemli bilik vermək;

Şərq rəssamlığının üslub xüsusiyyətlərini, kompozisiya və koloristik prinsiplərini təhlil etmə bacarığı formalaşdırmaq;

Müxtəlif Şərq rəsm məktəblərini müqayisəli şəkildə öyrətmək;

Şərq təsviri sənətinin fəlsəfi-estetik əsaslarını mənimsətmək;

Tələbələrdə bədii irsə hörmət və elmi-tədqiqat marağı formalaşdırmaq;

Şərq sənət nümunələrinin müasir incəsənətə təsirini dəyərləndirmək bacarığını inkişaf etdirmək.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:** Fənn üzrə tələbələrin biliyi 100 ballıq sistemlə qiymətləndirilir. Yəni tələbənin fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balın yarısı (50 balı) tələbənin semestr müddətində fəaliyyətinin nəticəsinə (cari qiymətləndirmə), digər yarısı isə (digər 50 balı) imtahanın nəticəsinə (aralıq qiymətləndirmə) görə verilir.

Fənn üzrə cari qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 bala aşağıdakılar daxildir:

- 20 bal - seminar dərslərində fəaliyyətinə görə;
- 30 bal - kollokviumların nəticələrinə görə.

Qiymətləndirmə zamanı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan yazılı şəkildə aparılır və imtahan biletinə bir qayda olaraq fənn üzrə tədris olunan mövzulara aid 5 sual daxil edilir. Hər sual maksimum 10 bal olmaqla qiymətləndirilir (aşağıda qeyd olunan qiymət meyarına əsasən) ki, bu da toplamda fənn üzrə aralıq qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 balı təşkil edir.

Qiymət meyarları aşağıdakılardır:

- 10 bal - tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
- 9 bal - tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu tam aça bilir;
- 8 bal - tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal - tələbə keçilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- 6 bal - tələbənin cavabı əsasən düzgündür;
- 5 bal - tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;
- 4 bal - tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal - tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal - tələbənin mövzudan qismən xəbəri var;

- 0 bal - cavab yoxdur.

Tələbənin fənn üzrə aralıq qiymətləndirmə balının (imtahanda topladığı balın) miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin fənn üzrə aralıq qiymətləndirmə balı cari qiymətləndirmə balına (semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala) əlavə olunmur.

Fənn üzrə cari və aralıq qiymətləndirmənin ümumi nəticəsinə görə tələbənin biliyi yekun olaraq aşağıdakı kimi qiymətləndirilir:

| **Bal aralığı (göstərilən ballar daxil olmaqla)** | **Hərflə işarəsi** | **Sözlə yazılışı** |
|---|---|---|
| 91-100 bal | A | əla |
| 81-90 bal | B | çox yaxşı |
| 71-80 bal | C | yaxşı |
| 61-70 bal | D | kafi |
| 51-60 bal | E | qənaətbəxş |
| 51-baldan aşağı | F | qeyri-kafi |

**IX. Davranış qaydalarının pozulması:**

Tələbə Universitetin Daxili intizam qaydalarını pozduqda onun barəsində mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir.

**X. Təqvim mövzu planı:**

Mühazirə: 30 saat; Praktik məşğələ: 15 saat; **Cəmi: 45 saat.**

| **№** | **Tədris olunan mövzuların məzmunu** | **Saat** | **Tarix** |
|---|---|---|---|
| | | **Mühazirə** | |
| 1. | **Mövzu № 1.** Ellinistik-Roma dövrü Misir təsviri sənəti və Kopt mədəniyyəti (I–IX əsrlər)<br>**Plan:**<br>1. Ellinistik və Roma dövrü Misir təsviri sənəti (I–III əsrlər)<br>2. II–VII əsrlər Kopt mədəniyyəti və erkən xristian Misir incəsənəti<br>3. IV–VII əsrlər Misir təsviri və dekorativ-tətbiqi sənəti<br>4. VII–IX əsrlər Misir incəsənəti<br>**Mənbə:** [7,8,9,15] | 4 | |
| 2 | **Mövzu № 2.** Fatimilər və Məmlüklər dövrü Misir incəsənəti (X–XV əsrlər)<br>**Plan:**<br>1. Fatimilər dövrü (X–XII əsrlər) Misir maddi mədəniyyəti və təsviri sənəti.<br>2. XII əsrin sonu – XV əsr: Məmlüklər dövründə Misir incəsənətinin inkişafında yeni mərhələ.<br>3. X–XV əsrlər Misir dekorativ-tətbiqi sənəti və təsviri incəsənəti (keramika, metal, şüşə, kitab miniatürü).<br>**Mənbə:** [2,5,6,9,15] | 2 | |
| 3 | **Mövzu № 3.** Ərəb ölkələri – İraq, Yəmən və Ərəbistan yarımadası incəsənəti (VIII–XIII əsrlər)<br>**Plan:**<br>1. VIII–XIII əsrlər İraq incəsənəti (Abbasilər dövrü, Bağdad miniatür məktəbi).<br>2. Erkən orta əsrlər Yəmən incəsənəti. | 2 | |

| | | | |
|---|---|---|---|
| | 3. Dioskoridin "Farmakologiyası"na yaradılmış illüstrasiyalar<br>**Mənbə:** [1,4,6,7,8] | | |
| 4 | **Mövzu № 4.** Ərəb ölkələri – Suriya, Fələstin və İordaniya incəsənəti (VII–XIII əsrlər)<br>**Plan:**<br>1. VII–XIII əsrlər Suriya incəsənəti.<br>2. VII–XIII əsrlər Fələstin incəsənəti.<br>3. VII–XIII əsrlər İordaniya incəsənəti.<br>**Mənbə:** [1,4,6,7,8] | 2 | |
| 5 | **Mövzu № 5.** Orta əsrlər Əfqanıstan incəsənəti<br>**Plan:**<br>1. XV əsrdə Herat miniatür məktəbinin təşəkkülü.<br>2. "Şahnamə" və "Kəlilə və Dimnə" əlyazmalarının miniatürləri.<br>3. Kəmaləddin Behzadın (1455–1535) yaradıcılığı<br>**Mənbə:** [6,7,8,9] | 2 | |
| 6 | **Mövzu № 6.** Orta Asiya ölkələrinin incəsənəti<br>**Plan:**<br>1. Orta Asiyanın ənənəvi memarlığında monumental rəngkarlığın yaranması və qarşılıqlı əlaqəsi<br>2. VII-VIII əsrlərə aid Buddist məbəd rəsmlərində.<br>**Mənbə:** [1,4,6,7,8] | 2 | |
| 7 | **Mövzu № 7.** XI–XX əsrlər Türkiyə incəsənəti.<br>**Plan:**<br>1. Bizans ikonaları. Kapadokya Bizans İncəsənətinin xəzinəsi kimi.<br>2. XVI-XVII əsrlər Türkiyə təsviri incəsənəti (Osmanlı imperiyasında miniatür və kalliqrafiya).<br>3. XVI-XVII əsrlər Türkiyə dekorativ tətbiqi sənəti.<br>4. Müasir incəsənət (XX əsr). Osman Hamdi Bəy.<br>**Mənbə:** [1,8,9,13,14] | 4 | |
| 8 | **Mövzu № 8.** Orta əsrlər İran incəsənəti (VII–XV əsrlər)<br>**Plan:**<br>1. III–VII əsrlər Sasani dövrü İran incəsənəti.<br>2. VII–XV əsrlər İran incəsənəti (İlhanlı, Teymuri dövrü).<br>3. Orta əsr İran miniatür məktəbləri (Təbriz, Şiraz, Herat) və rəssamların yaradıcılığı.<br>**Mənbə:** [1,7,8,9,12,] | 2 | |
| 9 | **Mövzu № 9.** I–XVII əsrlər Hindistan təsviri sənəti<br>**Plan:**<br>1. I–V əsrlər Qandhara təsviri sənəti: Buddanın həyatından səhnələr (relyef və freskalar).<br>2. IV–VI əsrlər Qupta dövrü – "Qızıl əsr". Ajanta və Ellora mağaralarının divar rəsmləri.<br>3. XVI əsrin sonu – XVII əsrin əvvəlləri Moğol miniatürləri.<br>4. Hindistan dekorativ-tətbiqi sənəti və sənətkarlıqda təsviri ənənələr (tekstil, metal, daş üzərində oyma, kitab sənəti).<br>5. Klassik Hindistan rəsmləri<br>**Mənbə:** [1,3,7,8,10,18] | 4 | |

| | | | |
|---|---|---|---|
| 10 | **Mövzu № 10.** Çin incəsənəti və mədəniyyəti<br>**Plan:**<br>1. Ənənəvi Çin rəssamlığı (guohua): ipək və kağız üzərində mürəkkəb və boya.<br>2. Vey və Tan dövrü divar boyakarlığı.<br>3. Rəssamlar Se He və Qu Kayji – Çin rəssamlıq nəzəriyyəsi.<br>4. Çin rəsminin əsas janrlarının və texnikalarının inkişafı<br>**Mənbə:** [1,3,7,8,9,17 ] | 2 | |
| 11 | **Mövzu № 11.** Koreya və Yaponiya incəsənəti<br>**Plan:**<br>1. Yaponiya incəsənəti: Comon keramikası; Yamato-e və Zen mürəkkəb rəssamlığı.<br>2. Edo dövrü ukiyo-e qrafikası və Katsuşika Hokusayın yaradıcılığı.<br>3. XVIII - XIX əsrin əvvəllərində Koreya Rəssamlığı və Qərbin təsiri.<br>**Mənbə:** [1,3,7,8,16,18] | 4 | |
| **Cəmi** | | **30 saat** | |

| № | Tədris olunan mövzuların məzmunu | Saat | Tarix |
|---|---|---|---|
| | | Seminar | |
| 1 | **Mövzu № 1.** Ellinistik-Roma dövrü Misir təsviri sənəti və Kopt mədəniyyəti (I–IX əsrlər) | 2 | |
| 2 | **Mövzu № 2.** Fatimilər və Məmlüklər dövrü Misir incəsənəti (X–XV əsrlər) | 2 | |
| 3 | **Mövzu № 3.** Ərəb ölkələri – İraq, Yəmən və Ərəbistan yarımadası incəsənəti (VIII–XIII əsrlər) | 2 | |
| 4 | **Mövzu № 4.** Ərəb ölkələri – Suriya, Fələstin və İordaniya incəsənəti (VII–XIII əsrlər)<br>**Mövzu № 5.** Orta əsrlər Əfqanıstan incəsənəti | 2 | |
| 5 | **Mövzu № 6.** Orta Asiya ölkələrinin incəsənəti | 2 | |
| 6 | **Mövzu № 7.** XI–XX əsrlər Türkiyə incəsənəti<br>**Mövzu № 8.** Orta əsrlər İran incəsənəti (VII–XV əsrlər) | 2 | |
| 7 | **Mövzu № 9.** I–XVII əsrlər Hindistan təsviri sənəti | 2 | |
| 8 | **Mövzu № 10.** Çinin incəsənəti və mədəniyyəti.<br>**Mövzu № 11.** Koreya və Yaponiya incəsənəti | 1 | |
| **Cəmi** | | **15 saat** | |

**XI. Fənn üzrə tələblər:**

Fənnin tədrisinin sonunda tələbələr "Şərqdə rəsm sənətinin tarixi" kursu üzrə müəyyən nəzəri və praktik biliklərə malik olmalı, o cümlədən fənn üzrə tədris olunan mövzularla bağlı fikirlərini elmi əsaslarla izah etməyi və əsaslandırmağı bacarmalıdırlar.
Tələbələr Şərq incəsənətinin əsas mərhələlərini, məktəblərini və üslub xüsusiyyətlərini bilməli, müxtəlif dövrlərə aid sənət nümunələrini xronoloji və üslubi baxımdan düzgün təhlil etmə bacarığına yiyələnməlidirlər.
Fənn üzrə tələbələr:

- təsviri və dekorativ-tətbiqi sənət nümunələrini müqayisəli şəkildə araşdırmağı;
- miniatür, freska, ikon, ornament və kalliqrafiya kimi anlayışları düzgün tətbiq etməyi;

- sənət əsərlərinin kompozisiya, rəng və ikonografik xüsusiyyətlərini təhlil etməyi bacarmalıdırlar.

**XII. Fənnin tədrisi üçün nəzərdə tutulan tədris və öyrənmə metodları:**

-mühazirə, seminar, praktiki tapşırıqlar
-təqdimat və müzakirə
-müstəqil iş/araşdırma

**XIII. Fənn üzrə təlim nəticələri:**

**FTN1.** Çin incəsənəti və mədəniyyəti haqqında geniş nəzəri məlumatlar əldə edəcəklər
**FTN2.** Yapon incəsənəti və mədəniyyəti haqqında geniş nəzəri məlumatlar əldə edəcəklər
**FTN3.** Hindistan incəsənəti və mədəniyyəti haqqında geniş nəzəri məlumatlar əldə edəcəklər
**FTN4.** Ərəbistan incəsənəti və mədəniyyəti haqqında geniş nəzəri məlumatlar əldə edəcəklər
**FTN5.** Türkiyə memarlığı haqqında geniş məlumatlar əldə edəcəklər
**FTN6.** Türkiyə rəngkarlığı haqqında geniş məlumatlar əldə edəcəklər.

**XIV. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

---

---

**XV. Kollokvium sualları:**

**I. Kollokvium sualları**

1. Ellinistik və Roma dövrü Misir təsviri sənəti (I–III əsrlər)
2. II–VII əsrlər Kopt mədəniyyəti və erkən xristian Misir incəsənəti
3. IV–VII əsrlər Misir təsviri və dekorativ-tətbiqi sənəti
4. VII–IX əsrlər Misir incəsənəti
5. Fatimilər dövrü (X–XII əsrlər) Misir maddi mədəniyyəti və təsviri sənəti.
6. XII əsrin sonu – XV əsr: Məmlüklər dövründə Misir incəsənətinin inkişafında yeni mərhələ.
7. X–XV əsrlər Misir dekorativ-tətbiqi sənəti və təsviri incəsənəti (keramika, metal, şüşə, kitab miniatürü).
8. VIII–XIII əsrlər İraq incəsənəti (Abbasilər dövrü, Bağdad miniatür məktəbi).
9. Erkən orta əsrlər Yəmən incəsənəti.
10. Dioskoridin "Farmakologiyası"na yaradılmış illüstrasiyalar

**II. Kollokvium sualları**

1. VII–XIII əsrlər Suriya incəsənəti
2. VII–XIII əsrlər Fələstin incəsənəti
3. VII–XIII əsrlər İordaniya incəsənəti
4. XV əsrdə Herat miniatür məktəbinin təşəkkülü
5. "Şahnamə" və "Kəlilə və Dimnə" əlyazmalarının miniatürləri
6. Kəmaləddin Behzadın (1455–1535) yaradıcılığı
7. Orta Asiyanın ənənəvi memarlığında monumental rəngkarlığın yaranması və qarşılıqlı əlaqəsi
8. VII-VIII əsrlərə aid Buddist məbəd rəsmlərində
9. Bizans ikonaları. Kapadokya Bizans İncəsənətinin xəzinəsi kimi.
10. XVI-XVII əsrlər Türkiyə təsviri incəsənəti (Osmanlı imperiyasında miniatür və kalliqrafiya)

**XI. İmtahan sualları:**

1. Ellinistik və Roma dövrü Misir təsviri sənəti (I–III əsrlər)
2. II–VII əsrlər Kopt mədəniyyəti və erkən xristian Misir incəsənəti

3. IV–VII əsrlər Misir təsviri və dekorativ-tətbiqi sənəti
4. VII–IX əsrlər Misir incəsənəti
5. Fatimilər dövrü (X–XII əsrlər) Misir maddi mədəniyyəti və təsviri sənəti.
6. XII əsrin sonu – XV əsr: Məmlüklər dövründə Misir incəsənətinin inkişafında yeni mərhələ.
7. X–XV əsrlər Misir dekorativ-tətbiqi sənəti və təsviri incəsənəti (keramika, metal, şüşə, kitab miniatürü).
8. VIII–XIII əsrlər İraq incəsənəti (Abbasilər dövrü, Bağdad miniatür məktəbi).
9. Erkən orta əsrlər Yəmən incəsənəti.
10. Dioskoridin "Farmakologiyası"na yaradılmış illüstrasiyalar
11. VII–XIII əsrlər Suriya incəsənəti
12. VII–XIII əsrlər Fələstin incəsənəti
13. VII–XIII əsrlər İordaniya incəsənəti
14. XV əsrdə Herat miniatür məktəbinin təşəkkülü
15. "Şahnamə" və "Kəlilə və Dimnə" əlyazmalarının miniatürləri
16. Kəmaləddin Behzadın (1455–1535) yaradıcılığı
17. Orta Asiyanın ənənəvi memarlığında monumental rəngkarlığın yaranması və qarşılıqlı əlaqəsi
18. VII-VIII əsrlərə aid Buddist məbəd rəsmlərində
19. Bizans ikonaları. Kapadokya Bizans İncəsənətinin xəzinəsi kimi.
20. XVI-XVII əsrlər Türkiyə təsviri incəsənəti (Osmanlı imperiyasında miniatür və kalliqrafiya)
21. XVI-XVII əsrlər Türkiyə dekorativ tətbiqi sənəti.
22. Müasir incəsənət (XX əsr). Osman Hamdi Bəy.
23. III–VII əsrlər Sasani dövrü İran incəsənəti.
24. VII–XV əsrlər İran incəsənəti (İlhanlı, Teymuri dövrü).
25. Orta əsr İran miniatür məktəbləri (Təbriz, Şiraz, Herat) və rəssamların yaradıcılığı.
26. –V əsrlər Qandhara təsviri sənəti: Buddanın həyatından səhnələr (relyef və freskalar).
27. IV–VI əsrlər Qupta dövrü – "Qızıl əsr". Ajanta və Ellora mağaralarının divar rəsmləri.
28. XVI əsrin sonu – XVII əsrin əvvəlləri Moğol miniatürləri.
29. Hindistan dekorativ-tətbiqi sənəti və sənətkarlıqda təsviri ənənələr (tekstil, metal, daş üzərində oyma, kitab sənəti).
30. Klassik Hindistan rəsmləri
31. Ənənəvi Çin rəssamlığı (guohua): ipək və kağız üzərində mürəkkəb və boya.
32. Vey və Tan dövrü divar boyakarlığı.
33. Rəssamlar Se He və Qu Kayji – Çin rəssamlıq nəzəriyyəsi.
34. Çin rəsminin əsas janrlarının və texnikalarının inkişafı
35. Yaponiya incəsənəti: Comon keramikası; Yamato-e və Zen mürəkkəb rəssamlığı.
36. Edo dövrü ukiyo-e qrafikası və Katsuşika Hokusayın yaradıcılığı.
37. XVIII - XIX əsrin əvvəllərində Koreya Rəssamlığı və Qərbin təsiri.

***Şərqdə rəsm sənətinin tarixi fənninin sillabusu 7001001-Təsviri sənətin tədrisi ixtisası (proqramı) üzrə tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir. Pedaqogika, psixologiya və incəsənət kafedrasının 13 fevral 2026-cı il tarixli iclasında təsdiq olunmuşdur (Protokol №06)***

**Fənn müəllimi:** b/m. A.N.Dadaşova
**Kafedra müdiri:** dos. A.X.Əliyev